ŞƏHLA ƏMİRLİ

# ƏSL KİNO ADAMI

*Əməkdar incəsənət xadimi, kinorejissor, kinoaktyor Elxan Cəfərovun həyat və yaradıcılığından bəhs edən kitab*

BAKI-2026

Azərbaycan kinosunda geniş tamaşaçı auditoriyasının rəğbətini qazanan kinematoqrafçılarımızdan biri də hələ uşaq yaşlarından müasir nağıl filmərinin və uşaq kinosunun qəhrəmanı kimi tanınan, görkəmli kino xadimləri ilə tərəf-müqabili olan, sonralar kinorejissor kimi bədii və sənədli filmlər ərsəyə gətirən, özünəməxsus dəst-xəttinə görə kinosevərlərin rəğbətini qazanan Azərbaycanın Əməkdar incəsənət xadimi, kinorejissor Elxan Cəfərovdur. Həyatını bütünlüklə kino sənətimizin inkişafına həsr edən, kino ictimaiyyətinin daim diqqətində olan Elxan Cəfərov bu gün də milli kino sənətimizə öz töhfələrini verir.

Kinematoqrafçının həyat və yaradıcılığını əhatəli şəkildə özündə əks etdirən, şərti adı "Əsl kino adamı" olan sənədli-publisistik portret Şəhla Əmirli tərəfindən hazırlanmışdır. Monoqrafiyada Elxan Cəfərovun həyat yolunun, kino fəaliyyətinin ətraflı təqdimatı ilə yanaşı, çəkildiyi və çəkdiyi filmlərin təhlili oxuculara təqdim edilir, tərəf-müqabillərinin, həmkarlarının çıxışlarında "Azərbaycanfilm" kinostudiyasının müəyyən dövrünün yaradıcı mühiti, çəkiliş meydançalarında olan ab-hava diqqətə çatdırılır.

Kitab geniş oxucu auditoriyası, kinematoqrafiya sahəsində çalışanlar və tələbələr üçün nəzərdə tutulmuşdur.

# MÜNDƏRİCAT

Müəllifdən ....................................................................7

Başlanğıc ....................................................................12

I fəsil

Xatırladıqlarım... ....................................................................14
Hüsü Hacıyev küçəsində keçən uşaqlıq illəri..... ....................17
Tərcümeyi-haldan səhifələr ....................................................26

II fəsil

Kinoda ilk addım
Elxan Cəfərovun uşaq rolları ...............................................53
Uğura doğru ..........................................................................98

III fəsil

Tələbəlik illəri........................................................................ 112
Gənclik dövrünün ekran həyatı ........................................ 145

IV Fəsil

Rejissorluğa keçid.................................................................. 167
Elxan Cəfərov yaradıcılığında Qarabağ mövzusu............. 191
Son illərdə çəkdiyi filmlər....................................................308
Kino xadimləri Elxan Cəfərov haqqında..........................356
Filmoqrafiya ........................................................................370

## Ön söz

Kinomuzun inkişafı ona sadiq olan, fədakarcasına xidmət edən insanlardan asılıdır. Kinoşünas Şəhla Əmirli də kino fəaliyyəti dövründə ekran hadisələrinin vacib keyfiyyətlərini əsas götürərək cəmiyyətə gərəkli tərəflərini tədqiq və təqdim edən nadir insanlardandır. O, hələ tələbəlik illərindən yazdığı resenziyalarla peşəsinə bağlılığını, filmlərə kinoşünas nöqteyi-nəzərindən analitik yanaşmasını, kadr tutumunu diqqətdə saxlamaq bacarığını sübut etmişdir. Daha sonra radio və televiziya verilişlərinin müəllif və aparıcısı kimi kinosevərlərin diqqətini çəkmiş, müxtəlif detallar üzərində dəqiq fikirlər yürüdərək məhsuldar yaradıcılıq meyarları ortaya qoymuşdur. Hər hansı bir mövzuya estetik prinsiplər əsasında yanaşaraq filmlərdəki söz, fikir ifadəliliyinin səlisliyinə, mənəviyyat tərbiyəsinin üstünlüyünə, təbliğinə, təsvirlərlə düşüncələrin harmoniyasının vacibliyinə yer vermişdir. Kinoşünas bu kimi kontekstdən çıxış edərək klassik və çağdaş filmlərə fərdi münasibətini bildirmiş, publisist-portret, analitik yazılarla, çıxışlarla mütəmadi olaraq kinematoqrafçıların yaradıcılıqlarına müraciət etmişdir.

Müəllifin fikrincə hər bir film birinci növbədə rejissorun ortaya qoyduğu, xüsusi üslubi imkanları ilə təqdim etdiyi daxili məninin əksidir. Bu mənada kinomuzun keçdiyi yolu, inkişaf mərhələsini araşdırmaq, rejissorların bu sahədəki rolunu müəyyənləşdirmək Ş.Əmirlinin yaradıcılıq məqsədidir. Kino adamlarının həyat və yaradıcılıq yolundan bəhs edən monoqrafiya yazmaq istəyi isə oxucu və tamaşaçı auditoriyasını tanımasının, qiymətləndirməsinin nəticəsidir.

Düşünürəm ki, Ş.Əmirli növbəti illərdə də Azərbaycan kinosunun keçdiyi inkişaf mərhələləri, qazandığı nailiyyətləri haqqında yazdığı kino ədəbiyyatını tamaşaçı və oxucu auditoriyasına təqdim edəcək, daha geniş həcmli kitabları nəşr olunacaq.

**Ayaz Salayev,**

*Azərbaycan Professional Kinorejissorlar Gildiyasının sədri, Əməkdar incəsənət xadimi, kinorejissor, kinoşünas.*

## Müəllifdən

Kinonun əsas mahiyyəti həyatı dərk etdirmək, inikasa çevrilmək, mütərəqqi fikirlərə yol açmaqdır. Həyatı dərindən duyan, zəngin mütaliəsi əsasında həyat həqiqətlərini düzgün sənət istiqamətində təhlil edən, hadisələrə estetik münasibətini bildirən, yaradıcılığında gerçək aləmin bədii obrazlı əksini yaradan, tamaşaçı kütləsini inandırmağa qadir olan kino xadimlərinin sayəsində kinematoqraf mühüm həyat məsələlərinin, əxlaqi keyfiyyətlərin, ictimai davranış qaydalarının, sosial problemlərin təhlil vasitəsinə, istinad nöqtəsinə çevrildi.

Ta qədimdən həyat ziddiyyətlər, qarşıdurmalar, xoşagəlməz hadisilərlə doludur. Kino həyat reallıqlarını təqib etməyi məqsədə çevirdiyi üçün təkamülü boyu dəyişməyə, yenilənməyə məcbur oldu. Buna görə də həssas qəlblərin, iti düşüncələrin təzahürü olan incəsənət növü bütün dövrlər üçün aktuallığını, baxımlılığını qorudu, təmin etdi. İctimai problemləri dəqiq müəyyənləşdirən, insanları narahat edən məsələlərə toxunan, aydınlıq gətirən kino adamlarının novatorluq keyfiyyəti, publisist fəaliyyəti izləyicilər tərəfindən şəffaf qarşılandı, qəbul edildi.

Əziz oxucu, sizə təqdim olunan bu kitab hələ kiçik yaşlarından kamera qarşısına keçən, daha sonra kinoaktyor, kinorejissor kimi çalışan, həyatını bütünlüklə kinematoqrafa həsr edən Elxan Cəfərovun həyat və yaradıclığını ətraflı şəkildə əhatə edir. Həmçinin, onun aktyorluq və rejissorluq fəaliyyəti dövründə kino mühitində baş verən hadisələrdən danışır.

Rejissorun ictimai həyatın qarşısında qoyduğu mühüm tələblərə vaxtında cavab verməsi, həyat həqiqətlərinə biganə qalmaması, insanları narahat edən məsələləri yüksək sənətkarlıq keyfiyyəti çərçivəsində təqdim etmək qabiliyyətinə malik olması çəkdiyi filmləri əhəmiyyətli məzmunda təqdim etməsinə, tamaşaçıları yaradıcılığına biganə qoymamasına imkan verir. Nəzərə alsaq ki, qəhrəmanımız istər rejissorluq, istərsə də aktyorluq fəaliyyətində müasirlərinin həyatını ekranlara gətirməyi, yaradıcılığı fonunda dəqiq fikir və mesajlar ötürməyi, sosial mühiti hiss etdirməyi əsas götürüb və özünü ifadə vasitəsi olaraq kinoda olmağı tərcih edib, bu mənada yaradıcılıq uğurlarının davamlılığı məlum olur.

Filmlər rejissorların təfəkkür tərzinin, aktyorların fərdi istedadının məhsuludur. Müasirlərinin həyatına biganə qalmayan, həyatla bağlı məsələləri, dövrü və insanları yaxından tanıyaraq, duyaraq, yüksək peşəkarlıqla ekranlaşdıran kinematoqrafçılar sözün əsl mənasında tarixin salnaməsini yaradırlar. Bu mənada kinorejissor, Əməkdar incəsənət xadimi Elxan Cəfərovun rejissorluq və aktyorluq fəaliyyəti kino salnaməmizin zəngin səhifələrini təşkil edir desək, yanılmarıq.

Erkən yaşlarından kino mühitində olan, görkəmli kino xadimləri ilə çiyin-çiyinə çalışan, həyatın həssas, vacib məqamlarını duyma və çatdırma məharətini dəfələrlə sübut edən Elxan Cəfərov çətin və məsuliyyətli işinin öhdəsindən bacarıqla gəlib. Əsasən də rejissorluq fəaliyyəti dövründə əsl vətəndaşlıq mövqeyini ortaya qoyan kino adamının ömür yolundan bəhs edən kitab ərsəyə gətirmək istəyim, ömrünün çox hissəsini kinostudiyada keçirən kino adamının bu mogikan istehsalat bazasına bağlılıq səbəbini bilmək, xatirələrini və duyğularını qələmə almaq, daxili dünyasını, kinoda olma niyyətini öyrənmək məqsədi daşıyır.

Yaradıcılıq əzmi istedadla əlaqədardır. Onu üzə çıxarmaq böyük zəhmət, dözümlülük tələb edir. Bütün ömrünü düşüncələrinin, hisslərinin cəmindən doğan ekran əsərlərinin yaranmasına

həsr etmək üçün elə yaradıcı insan kimi doğulmaq lazımdır. Bizim qəhrəmanımız da taleyinə məşhurluq ömrü yaşamaq yazılan, daha doğrusu bunun üçün doğulan, istedadını büruzə verməyə bənd imiş kimi uğuru, şöhrəti kiçik yaşlarından ömrünə yazan əsl kino adamıdır.

Kinematoqraf bütün sənət növlərini özündə birləşdirdiyi üçün bu sahənin adamlarından ikiqat istedad, zəhmət tələb olunur. Hər bir insan öz ömrünü yaşayır, seçdiyi peşəni təmsil edir. Kinematoqrafçılar isə ekrana köçən ömürlərə və dövrlərə bələdçilik edir, müxtəlif hadisələri təhlil obyektinə çevirir. Buna görə də daim yaradıcılıq axtarışında olan, təfəkküründən yaranan sənət nümunələri ərsəyə gətirən kino adamları xalqın mənəvi sərvətidirlər desək, yanılmarıq.

Elə sənətkarlar var ki, Azərbaycan mədəni mühitinə geniş həcmdə öz yaradıcılıq töhfələrini veriblər. Onların adları sənət tariximizə qızıl hərflərlə yazılıb, yaddaşımızda əbədi həkk olunub. Təəssüflər olsun ki, bəzi sənət adamlarının şəxsi həyatı, düşüncələri və istəkləri, fəaliyyətləri haqqında demək olar ki, ya məlumat yoxdur, ya da kiçik həcmdədir. Bu mənada müasirimiz olan sənətkarların ömür yolunu işıqlandıran monoqrafiyaların yazılması zəruridir.

Əbu Turxan (Səlahəddin Xəlilov-fəlsəfə elmləri doktoru) "Keçmiş xatirələrdə, gələcək isə xəyallarda yaşayır" deyir. Monoqrafiyanın "Xatırladıqlarım..." bölümündə də Elxan Cəfərovun ömür yolunu aydınladan, uşaqlıq, yeniyetməlik illərinin həssas məqamları, keçmişi, ailəsi ilə bağlı kövrək xatirələri yer tutur. Həmçinin bu xatirələr qəhrəmanımızın yaxınları, qohum-əqrəbası haqqında aydın təsəvvür yaradır, aktyor olma səbəbinin ilkin rüşeymlərinin, cücərtilərinin qaynağını, səbəbini açıqlayır.

İnsan həyatında elə anlar olur ki, yaşadıqları sonralar həyat məktəbinə çevrilir. Onu kökündən qopmağa, səhv etməyə, tənhalaşmağa, dəyişməyə qoymur. Buna görə də, həmin bölümdə qeyd

olunan, böyük təvazökarlıqla etiraf edilən faktlar hər bir uşağın hələ kiçik yaşlarından ictimai həyata atılmağının zəruriliyini, qohum-əqrəbaya yaxın olmağın həyatında nə kimi rolu olduğunu, yaradıcılığa mütləq şəkildə təsir etdiyini ortaya qoyur. Nümunəvi valideyn olmağın təsdiqi isə övladların həyatda özlərini tapdığı, uğurlara imza atdığı gündən başlayır. Bu mənada əməllər böyük olmalıdır ki, nəticələr də müsbət və gerçək olsun.

Məslək seçimi bəzi hallarda istəkdən, nadir hallarda qismətdən asılıdır. Səkkiz yaşından aktyor kimi məşhurlaşan, kino ictimaiyyətinin və kinosevərlərin sevimlisinə çevrilən Elxan Cəfərovun kinoya gəlişini, bu sahədəki fəaliyyətini taleyinə yazılan məsuliyyətli missiya, qismət payı adlandıra bilərik. Üzərinə düşən işin öhdəsindən bacarıqla gələn, özündən qat-qat ağır yükün altına girən gələcəyin tanınmış kino adamının yaradıcılıq yolu uşaqlıq, gənclik və orta yaş dövrlərini əhatə edir.

Müxtəlif yaş həddində aktyor və rejissor kimi müqtədir sənətkarlarla çiyin-çiyinə çalışan Elxan Cəfərovun sənət sirlərini dərindən qavraması, görüb-götürməsi peşə bilgisi ilə yanaşı, dünyagörüşünün artmasına, xəyallarını xatirələrə çevirməsinə, üzərinə düşən məsuliyyətin böyüklüyünün fərqinə varmasına səbəb olub. Uşaq yaşlarından sənət korifeylərinin mülahizələrini dinləyən, keşməkeşli yolları keçdiklərini bilən, buna baxmayaraq, Azərbaycan kino sənətinin keşiyində durduqlarına görə özü də kinoda qalmağı tərcih edən E.Cəfərov yaradıcılıq missiyasını davam etdirməyi məslək, vətəndaşlıq borcu bilib, peşəsini həyatının mənasına çevirib.

Elxan Cəfərovun Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasını özünə ikinci evi seçməsi, kinomuzun çətin, tənəzzül dövrlərində oranı tərk etməməsi işinə bağlılığını, kinoya vurğunluğunu bir daha sübut edir. Kinostudiyanın qaynar iş rejimində çalışdığı zamanlarda buraya ayaq basan, kiçik yaşlarından bu çörəkli məkandan qazanc götürən, tərəf-müqabili olduğu